# “AZƏRENERJİ” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2015-cü il tarixinə bitən il üzrə
**Konsolidə edilmiş maliyyə hesabatları**

# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2015-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT

Rəhbərlik "AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyəti və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2015-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyatlarının konsolidə edilmiş nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitaldakı dəyişiklikləri düzgün əks etdirən konsolidə edilmiş maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara məsuldur:

- Müvafiq mühasibat uçotu siyasətinin seçilməsi və ardıcıl şəkildə tətbiqinə;
- Mühasibat uçotu siyasəti də daxil olmaqla, məlumatın müvafiqlik, mötəbərlik, müqayisəlilik və anlaşıla bilənliyi prinsiplərinin təmin edilməsi şərti ilə təqdim olunmasına;
- Xüsusi əməliyyatların, digər hadisələr və şəraitlərin Qrupun konsolidə edilmiş maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirinin istifadəçilər tərəfindən anlaşılmasına yardım etmək üçün MHBS-a müvafiqlik kifayət etmədiyi təqdirdə əlavə açıqlamaların verilməsinə;
- Qrupun fasiləsizlik prinsipi ilə fəaliyyət göstərə bilməsi qabiliyyətinin qiymətləndirilməsinə.

Rəhbərlik həmçinin aşağıdakılara görə cavabdehdir:

- Qrup üzrə effektiv və sağlam daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanması;
- Qrupun əməliyyatlarının göstərilməsi və izah edilməsi, eləcə də onun konsolidə edilmiş maliyyə vəziyyətinin istənilən vaxtda qənaətbəxş dəqiqlik ilə açıqlanması üçün yetərli olan, habelə, Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-a uyğun gəldiyini təmin edən müvafiq mühasibat qeydlərinin aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu standartlarına müvafiq olaraq uçotun aparılması;
- Qrupun aktivlərinin mühafizə olunması üçün mövcud imkanlardan istifadə etməklə tədbir görülməsi;
- Saxtakarlıq və digər qanun pozuntusu hallarının aşkar edilməsi və qarşısının alınması.

31 dekabr 2015-ci il tarixinə bitən il üzrə Qrupun konsolidə edilmiş maliyyə hesabatları 31 mart 2016-cı il tarixində rəhbərlik tərəfindən təsdiq edilmişdir.

Deloitte.

Deloitte & Touche MMC
Landmark
Nizami küç. 96
Bakı, AZ1010
Azərbaycan

Tel: +994 (12) 404 1210
Faks: +994 (12) 404 1211
www.deloitte.az

**MÜSTƏQİL AUDİTOR RƏYİ**

"AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarı və İdarə Heyətinə:

Biz "AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyəti və onun törəmə müəssisələrinin (birlikdə - "Qrup") 31 dekabr 2015-ci il tarixinə olan maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatı və həmin tarixə bitən il üzrə mənfəət və zərər və məcmu mənfəət, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabatları, habelə, mühüm mühasibat uçotu siyasətlərinin xülasəsi və digər izahedici məlumatları özündə əks etdirən əlavə olunmuş konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

*Rəhbərliyin konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı məsuliyyəti*

Rəhbərlik Maliyyə Hesabatları üzrə Beynəlxalq Standartlara müvafiq olaraq konsolidə edilmiş bu maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi, eləcə də saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə görə zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

*Auditorun məsuliyyəti*

Bizim məsuliyyətimiz apardığımız auditə əsasən konsolidə edilmiş bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir.

Biz auditi Beynəlxalq Audit Standartlarına müvafiq olaraq həyata keçirdik. Bu standartlar bizdən etik tələblərə riayət etməyimizi, eləcə də konsolidə edilmiş maliyyə hesabatlarında mühüm təhriflərin olmadığına kifayət qədər əminliyin əldə edilməsi məqsədi ilə auditi planlaşdırmağımızı və həyata keçirməyimizi tələb edir.

Audit zamanı konsolidə edilmiş maliyyə hesabatlarındakı məbləğ və açıqlamalara dair audit sübutlarının əldə olunması ilə bağlı prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mühakiməsi, o cümlədən konsolidə edilmiş maliyyə hesabatlarında saxtakarlıq yaxud səhv nəticəsində baş verməsindən asılı olmayaraq mühüm təhriflər ilə bağlı risklərin qiymətləndirilməsindən asılı olaraq seçilir. Belə risk qiymətləndirmələrini həyata keçirərkən auditor şəraitə uyğun olaraq audit prosedurlarının planlaşdırılması məqsədilə müəssisənin daxili nəzarət sistemini, həmin sistemin effektivliyi barədə rəy bildirmək üçün deyil, müəssisə tərəfindən konsolidə edilmiş maliyyə hesabatlarının düzgün hazırlanması və təqdim edilməsi ilə bağlı fikir formalaşdırır. Auditə, həmçinin, rəhbərlik tərəfindən tətbiq edilən mühasibat uçotu qaydalarının müvafiqliyinin və irəli sürülmüş mühasibat hesablamalarının əsaslı olduğunun qiymətləndirilməsi, habelə konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Hesab edirik ki, audit rəyimizi bildirmək üçün əsas verən kifayət qədər və uyğun audit sübutu əldə etmişik.

*Rəy*

Fikirimizcə, konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Qrupun 31 dekabr 2015-ci il tarixinə olan konsolidə olunmuş maliyyə vəziyyətini və onun həmin tarixə bitən il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatları üzrə Beynəlxalq Standartlara müvafiq olaraq düzgün əks etdirir.

31 mart 2016-cı il
Azərbaycan Respublikası, Bakı şəhəri

Deloitte adı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının qanunvericiliyi əsasında qeydiyyata alınmış və məsuliyyəti onun iştirakçıları tərəfindən verilən təminatlarla məhdudlaşan Deloitte Touche Tohmatsu Limited şirkətinə və onun üzv şirkətlərindən ibarət olan şəbəkəyə aid ayrı və müstəqil hüquqi şəxslərdən birinə və ya hər hansına məxsusdur. Deloitte Touche Tohmatsu və ona üzv şirkətlərin hüquqi strukturunun ətraflı təsviri üçün www.deloitte.com/about internet səhifəsinə müraciət edin. "Deloitte MDB"-nin hüquqi forması haqqında məlumat almaq üçün isə http://www.deloitte.com/ru/about internet səhifəsinə daxil ola bilərsiniz.

© 2016 "Deloitte & Touche" MMC. Bütün hüquqlar qorunur.

# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2015-Cİ İL TARİXİNƏ
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2015-ci il | 31 dekabr 2014-cü il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 3,390,467 | 4,745,965 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 67,673 | 150,222 |
| Təxirə salınmış vergi aktivləri | 315,807 | 88,415 |
| Digər uzunmüddətli aktivlər | 415 | 485 |
| *Cəmi uzunmüddətli aktivlər* | 3,774,362 | 4,985,087 |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 51,728 | 54,974 |
| Əvəzləşdirilən ƏDV | 323,097 | 387,650 |
| Ssudalar və debitor borclar | 79,528 | 55,682 |
| Ödənilmiş avanslar və qabaqcadan ödənilmiş xərclər | 26,952 | 46,333 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 3,924 | 50,332 |
| *Cəmi qısamüddətli aktivlər* | 485,229 | 594,971 |
| **CƏMİ AKTİVLƏR** | **4,259,591** | **5,580,058** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 1,760,495 | 1,760,495 |
| Əlavə ödənilmiş kapital | 549,167 | 309,357 |
| (Yığılmış zərər) / Bölüşdürülməmiş mənfəət | (1,550,428) | 244,069 |
| *Cəmi kapital* | 759,234 | 2,313,921 |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Ssudalar və borc vəsaitləri, uzunmüddətli hissəsi | 1,659,513 | 900,898 |
| Dövlət subsidiyaları | 234,677 | 88,631 |
| Təxirə salınmış vergi öhdəliyi | 75,480 | 215,336 |
| İstismardan çıxarma üzrə öhdəlik | 38,933 | 38,571 |
| Ticarət və digər kreditor borcları | 1,746 | 2,619 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 2,010,349 | 1,246,055 |
| *Qısamüddətli öhdəliklər* | | |
| Ssuda və borc vəsaitləri, qısamüddətli hissəsi | 725,012 | 609,962 |
| Ticarət və digər kreditor borcları | 482,049 | 628,832 |
| Müştərilərdən alınmış avanslar | 1,325 | 1,224 |
| Cari mənfəət vergisi öhdəliyi | 54,815 | 364,163 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 226,807 | 415,901 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 1,490,008 | 2,020,082 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 3,500,357 | 3,266,137 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4,259,591** | **5,580,058** |

# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2015-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ
## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ MƏCMU MƏNFƏƏT HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2015-ci il tarixinə bitən il | 31 dekabr 2014-cü il tarixinə bitən il |
|---|---|---|
| **DAVAM EDƏN FƏALİYYƏT ÜZRƏ** | | |
| GƏLİR | | |
| Enerji satışı | 725,879 | 721,104 |
| Elektrik şəbəkəsinə qoşulma xidməti | 2,185 | 23,074 |
| Digər satış gəlirləri | 5,698 | 6,618 |
| | 733,762 | 750,796 |
| XƏRCLƏR | | |
| Yanacaq | (392,466) | (358,322) |
| Köhnəlmə və amortizasiya | (159,268) | (160,950) |
| İşçi heyətinin saxlanılması xərcləri | (54,164) | (63,472) |
| Təmir və texniki xidmət | (23,982) | (47,509) |
| Ssudaların və debitor borcların dəyərsizləşməsi ehtiyatında dəyişiklik | 298,328 | (818) |
| Mənfəət vergisindən başqa digər vergilər | (44,558) | (35,066) |
| Xammal və materiallar | (8,202) | (9,924) |
| Alınmış enerji | (3,389) | (2,774) |
| Digər | (11,129) | (8,767) |
| *Əməliyyat mənfəəti* | 334,932 | 63,194 |
| Maliyyə xərcləri, xalis | (35,752) | (28,289) |
| Xarici valyuta mübadiləsindən (zərər) / gəlir, xalis | (1,001,079) | 107,620 |
| Kreditor borcların silinməsindən gəlir | 72,406 | 177 |
| Əmlak, tikili və avadanlıq üzrə dəyərsizləşmə itkisi | (348,856) | - |
| *Mənfəət vergisindən əvvəl (zərər) / mənfəət* | (978,349) | 142,702 |
| Mənfəət vergisi gəliri / (xərci) | 183,340 | (31,167) |
| *Davam edən fəaliyyətdən il üzrə cəmi məcmu (zərər) / mənfəət* | (795,009) | 111,535 |
| **DAYANDIRILMIŞ FƏALİYYƏT ÜZRƏ** | | |
| *Dayandırılmış fəaliyyətdən il üzrə cəmi məcmu zərər* | (75,521) | (91,941) |
| **İL ÜZRƏ CƏMİ MƏCMU (ZƏRƏR) / MƏNFƏƏT** | **(870,530)** | **19,594** |

## 31 DEKABR 2015-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət / (Yığılmış zərər) | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2014-cü il tarixinə qalıq** | **1,760,495** | **216,610** | **224,475** | **2,201,580** |
| İl üzrə cəmi məcmu mənfəət | - | - | 19,594 | 19,594 |
| Əlavə ödənilmiş kapital | - | 92,747 | - | 92,747 |
| **31 dekabr 2014-cü il tarixinə qalıq** | **1,760,495** | **309,357** | **244,069** | **2,313,921** |
| İl üzrə cəmi məcmu mənfəət | - | - | (870,530) | (870,530) |
| Azərişıq ASC-yə verilmiş aktivlərin dəyəri | - | - | (923,967) | (923,967) |
| Əlavə ödənilmiş kapital | - | 239,810 | - | 239,810 |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | **1,760,495** | **549,167** | **(1,550,428)** | **759,234** |

# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2015-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2015-ci il tarixinə bitən il | 31 dekabr 2014-cü il tarixinə bitən il |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| *İl üzrə cəmi məcmu (zərər) / mənfəət* | (870,530) | 19,594 |
| *Aşağıdakılara görə düzəlişlər:* | | |
| Mənfəət vergisi (gəliri) / xərci | (181,639) | 35,784 |
| Köhnəlmə və amortizasiya | 180,943 | 220,670 |
| Əmlak, tikili və avadanlıq üzrə dəyərsizləşmə itkisi | 348,856 | |
| Ssuda və debitor borcları üzrə (dəyərsizləşmə itkisinin bərpası) / dəyərsizləşmə itkisi | (244,830) | 48,647 |
| Əmlak, tikili və avadanlığın xaricolmasından zərər | 1,948 | 749 |
| Mal-materiallar üzrə (dəyərsizləşmə itkisinin bərpası) / dəyərsizləşmə itkisi | (3,561) | 1,879 |
| Elektrik şəbəkəsinə qoşulma xidməti | (13,734) | (45,503) |
| Kreditor borcların silinməsindən gəlir | (72,406) | (177) |
| Xarici valyuta mübadiləsindən zərər / (gəlir), xalis | 1,001,079 | (107,620) |
| Maliyyə xərcləri, xalis | 39,903 | 33,316 |
| | 186,029 | 207,339 |
| *Dövriyyə kapitalındakı hərəkətlər:* | | |
| Mal-materiallarda (artım) / azalma | (3,045) | 4,519 |
| Əvəzləşdirilən ƏDV-də artım (i) | (31,496) | (137,645) |
| Ticarət və digər debitor borclarında azalma / (artım) | 204,981 | (110,525) |
| Ödənilmiş avanslar və qabaqcadan ödənişlərdə azalma / (artım) | 19,381 | (23,033) |
| Ticarət və digər kreditor borclarında azalma / (artım) | (137,046) | 167,334 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəliklərində azalma / (artım) | (207,250) | 95,885 |
| *Əməliyyatlardan daxil olan xalis pul vəsaitləri* | 31,554 | 203,924 |
| Ödənilmiş mənfəət vergisi | (151,313) | (4,393) |
| Ödənilmiş faiz | (29,491) | (31,272) |
| **Əməliyyat fəaliyyətində (istifadə olunan) / əldə olunan xalis pul vəsaitləri** | **(149,250)** | **168,259** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Verilmiş ssudaların geri ödənilməsi | 21,773 | 31,496 |
| Əmlak, tikili və avadanlığın alınması (ii) | (132,393) | (119,138) |
| Digər uzunmüddətli aktivlərin alınması | (54) | (108) |
| **İnvestisiya fəaliyyətinə yönəldilən xalis pul vəsaitləri** | **(110,674)** | **(87,750)** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Borc vəsaitlərinin alınması (ii) | 195,625 | 42,927 |
| Borc vəsaitlərinin geri ödənilməsi | (211,875) | (196,770) |
| Dövlət subsidiyasının əldə edilməsi | 164,375 | - |
| Səhmdar tərəfindən əlavə ödənilmiş kapitala daxilolmalar | 61,867 | 92,747 |
| **Maliyyə fəaliyyətindən əldə olunan / (istifadə olunan) xalis pul vəsaitləri** | **209,992** | **(61,096)** |
| **NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA) / ARTIM** | **(49,932)** | **19,413** |
| **İLİN ƏVVƏLİNDƏ NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **50,332** | **32,964** |
| Valyuta məzənnələrində dəyişikliklərin xarici valyutada saxlanılan nağd pul və pul vəsaitlərinin ekvivalentlərinin balans dəyərinə təsiri | 3,524 | (2,045) |
| **İLİN SONUNDA NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **3,924** | **50,332** |

**Pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabata daxil olmayan nağdsız əməliyyatlar**

31 dekabr 2015-ci il tarixinə bitən il üzrə konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda göstərilən məbləğlərə aşağıdakı qeyri-nağd əməliyyatlar daxil edilmir:

(i) Mənfəət vergisi, əlavə dəyər vergisi və digər vergilər üzrə müvafiq olaraq 12,248 min AZN, 73,166 min AZN və 17,880 min AZN məbləğdə öhdəliklərin (2014-cü ildə: 9,071 min AZN, 68,622 min AZN və 27,124 min AZN) nağd pul və pul vəsaitlərinin ekvivalentlərinə aid edilməyən ƏDV depozit hesabından ödənilmişdir.

(ii) Müvafiq ssuda sazişlərinə əsasən 292 min AZN (2014-cü ildə: 40,718 min AZN) məbləğində borc vəsaitləri əmlak, tikili və avadanlıqlara görə ödənişlər formasında alınmışdır.

(iii) Səhmdarlar tərəfindən Qrupa xalis aktivlərinin dəyəri 68,951 min AZN olan Taxtakörpü Su Elektrik Stansiyası təqdim edilmişdir.

(iv) Xalis dəyəri 923,967 min AZN olan aktiv və öhdəliklər "Azərişıq" ASC-yə ötürülmüşdür.